


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 37 (23.924)

24 fevral 2022-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Fevralın 22-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mətbuata bəyanatlarla çıxış ediblər. Prezident İlham Əliyev mətbuata bəyanatında bildirib ki, ölkələrimiz arasında çox geniş müqavilə-hüquq bazası vardır. Yeni imzalanan Bəyannamə münasibətləri müttəfiqlik səviyyəsinə çıxarır. Bu həm böyük imtiyaz, həm də böyük məsuliyyətdir. Bəyanatda bildirilib ki, iki ölkənin dövlət başçıları tərəfindən regionda münaqişədən sonrakı vəziyyət də ətraflı müzakirə edilib. Bildirilib ki, Azərbaycan tərəfi Ermənistanın 9-10 noyabr 2020-ci il tarixli Bəyannamənin bütün erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması, habelə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında kommunikasiyaların açılması barədə bütün bəndləri tamamilə yerinə yetirəcəyini gözləyir. Bu, erməni tərəfin hüquqi öhdəliyidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 22-də Moskvada Rusiya Nazirlər Kabinetinin Əlaqələndirmə Mərkəzi ilə tanış olub. Fevralın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Moskvada TASS agentliyinin mənzil-qərargahında “Rusiya və Azərbaycanın diplomatik münasibətlərinin 30 ili TASS və AZƏRTAC-ın fotolarında” adlı ekspozisiya ilə tanış olublar, sonra TASS agentliyinin mənzil-qərargahında Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşüblər.

## 2022-ci ilin yanvar ayında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı



Muxtar respublikada 2022-ci ilin yanvar ayında 180 milyon 315 min 200 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur. Bu, 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,2 faiz artaraq 389,4 manat olmuşdur.

***

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 97 milyon 916 min 700 manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur.

***

Vəsait qoyuluşları çərçivəsində 2022-ci ilin yanvar ayında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 37 milyon 859 min 900 manat vəsait yönəldilmişdir. Bu da bir il öncəki göstəricidən 1,1 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 35 milyon 204 min 200 manatı və ya 93 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

***

2022-ci ilin yanvar ayında 9 milyon 483 min 300 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,5 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 2339 ton, süd istehsalı 2121 ton olmuşdur. 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 6 faiz, süd istehsalı isə 1,3 faiz artmışdır.

***

2022-ci ilin yanvar ayında informasiya və rabitə xidmətlərinin dəyəri 4 milyon 553 min 400 manat olmuşdur ki, bu da 2021-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 1,8 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 3 milyon 272 min 900 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,5 faiz artmışdır.

***

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2022-ci ilin yanvar ayında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 19 milyon 308 min 200 manat məbləğində kreditlər verilmişdir. Bu, bir il öncəki göstəricidən 71,7 faiz çoxdur. Verilmiş kreditlərin 1 milyon 722 min 500 manatı və yaxud 8,9 faizi qısamüddətli, 17 milyon 585 min 700 manatı və yaxud 91,1 faizi uzunmüddətli kreditlər olmuşdur.

***

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 384 növdə məhsul istehsal olunur ki, bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

***

2021-ci ildə muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış ortaaylıq əməkhaqqı 553,6 manata çatdırılmışdır ki, bu da 2020-ci illə müqayisədə 3,3 faiz çoxdur.

***

1 yanvar 2022-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 1430 nəfər artaraq 462 min 960 nəfər olmuşdur.

*Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti*

## Məktəblilər arasında “Lego Sumo” və “Sosial texnologiyalar” müsabiqələri keçirilib



*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə muxtar respublika məktəbliləri arasında STEAM layihələrindən ibarət növbəti “Lego Sumo” və “Sosial texnologiyalar” müsabiqələri keçirilib.*

Tədbirdən əvvəl Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov STEAM təhsilinin muxtar respublikada tətbiqi ilə bağlı görülən işlər haqqında danışıb. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 7 iyun tarixli Sərəncamına əsasən bu günədək 56 təhsil müəssisəsində STEAM kabinəsi yaradılıb, əlavə olaraq 50 ümumtəhsil məktəbində STEAM kabinələrinin yaradılması işləri davam etdirilir, “STEAM təhsil festivalı”nın keçirilməsi ilə bağlı hazırlıq tədbirləri görülür, Naxçıvan şəhərində STEAM Təlim-Tədris Mərkəzi yaradılır.

Qeyd olunub ki, Təhsil Nazirliyinin təşkilatçılığı ilə yerli STEAM təlimçiləri və Beynəlxalq təcrübəyə malik mütəxəssislər tərəfindən 325 müəllimə təlimlər keçirilib. Eyni zamanda STEAM dərslərinin tədrisi üçün nazirlik tərəfindən qısa müddətdə 7 kitab çap olunub, müəllim və şagirdlərin istifadəsinə verilib.

Rəhman Məmmədov STEAM təhsilinin əhəmiyyətindən danışaraq bildirib ki, hədəf şagirdlərdə yüksək mütəşəkkil düşüncəni inkişaf etdirmək, əldə olunan biliklər vasitəsilə layihələr hazırlamaq və fənlərin daha dərindən mənimsədilməsinə nail olmaqdır. Artıq şagirdlər yaradılan imkanlardan səmərəli istifadə edərək muxtar respublika və ölkə səviyyəli yarışlarda öz layihələri ilə iştirak edir və uğurlu nəticələr qazanırlar. Vurğulanıb ki, VII sinif şagirdlərindən ibarət komandalarımız may ayında Bakı şəhərində keçiriləcək “Teknofest – 2022” festivalında iştirak etmək üçün hazırladıqları layihələrlə qeydiyyatdan keçiblər.

Diqqətə o da çatdırılıb ki, 2021-2022-ci tədris ilində STEAM təhsili metodu ilə bu günədək “Robotunu yarat”, “Xətt izləyən robot” və “Mancanaq robot” müsabiqəsi keçirilib.

Bildirilib ki, bugünkü müsabiqələr şagirdlərin bilik və bacarıqlarını üzə çıxarmaqla yanaşı, iyun ayında keçiriləcək “STEAM təhsil festivalı”na hazırlıq məqsədi daşıyır.

Təhsil naziri müsabiqə iştirakçılarına uğurlar arzulayıb.

Nazirliyin Tədris-İnnovasiyalar sektorunun müdiri Murad Babayev bildirib ki, müsabiqələrdə muxtar respublikanın ümumtəhsil müəssisələrindən sosial texnologiyalar üzrə 55, “Lego Sumo” üzrə isə 27 komanda iştirak edib. Sosial texnologiyalar üzrə 90 şagirdin 65 layihəsi, “Lego Sumo” üzrə isə 54 şagirdin 30 Sumo robotu nümayiş olunub.

Sonra şagirdlər komanda şəklində hazırladıqları layihələri təqdim ediblər. Təqdimatlardan sonra “Lego Sumo” müsabiqəsinə start verilib.

Yarışın nəticələrinə əsasən “Lego Sumo” müsabiqəsinin qalibi Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi, “Sosial texnologiyalar” müsabiqəsinin qalibi isə Şahbuz rayon 1 nömrəli tam orta məktəb olub.

Sonda qaliblərə, müsabiqələrdə II-III yerlərə layiq görülən komandalara diplom və medallar təqdim olunub.

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti*

*Rabitə sistemində yeni texnologiyaların tətbiqi, internet şəbəkəsinin genişlənməsi günümüzün tələbləri sırasındadır.*

## Muxtar respublikada əhalinin internetə olan tələbatının ödənilməsi diqqətdə saxlanılır

Bu məqsədlə Naxçıvan şəhəri ilə yanaşı, rayonlarda da yeni nəsil texnologiyalarının qurulması və nəticədə, əhalinin dayanıqlı rabitə, yüksəksürətli internet və digər xidmətlərlə təmin olunması istiqamətində işlər davam etdirilir, genişzolaqlı internet şəbəkəsini genişləndirmək üçün avtomat telefon stansiyalarında internet avadanlıqlarının və telefon şəbəkəsinin montaj tutumları tələbata uyğun olaraq artırılır. Belə ki, Şahbuz rayonunda əhalinin internetə olan tələbatının təmin edilməsi, eyni zamanda keyfiyyətli və çoxçeşidli rabitə xidmətlərinin təşkili məqsədilə bir sıra işlər görülməkdədir. Rayonun Biçənək, Daylaqlı, Şahbuzkənd, Keçili və Külüs kəndlərində fəaliyyət göstərən yeni nəsil “HUAWEİ NGN” tipli avtomat telefon stansiyalarının internet tutumları artırılıb ki, nəticə etibarilə, 448 nəfər internet istifadəçisinin tələbatının ödənilməsinə şərait yaranıb.

Bunlarla yanaşı, tələbata uyğun olaraq Babək rayonunun Didivar, Kültəpə və Uzunoba kəndlərində də mövcud avtomat telefon stansiyalarına müxtəliftutumlu internet plataları artırılıb ki, ümumilikdə, 160 nəfər internet istifadəçisinin tələbatının ödənilməsinə şərait yaranıb.

Qeyd edək ki, cari ilin yanvar ayında Şərur və Babək rayonlarının bir sıra yaşayış məntəqələrində əhalinin internetə olan tələbatının ödənilməsi məqsədilə mövcud avtomat telefon stansiyalarının internet tutumu artırılıb, nəticə etibarilə, 672 istifadəçinin genişzolaqlı internetlə təmin olunmasına imkan yaranıb.

Muxtar respublikanın digər rayonlarında da əhalinin internetə olan tələbatının ödənilməsi istiqamətində tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti*

# Xocalı soyqırımı qurbanlarının xatirəsi Türkiyənin Qars şəhərində də anılıb



Türkiyənin Qars şəhərində Xocalı soyqırımının otuzuncu ildönümü ilə əlaqədar anma mərasimi keçirilib.

Mərasimdən əvvəl iştirakçılar Qarsdakı Heydər Əliyev Parkına gələrək ulu öndərimizin burada ucalan abidəsi önünə tər çiçəklər düzüb, əziz xatirəsini ehtiramla yad ediblər.

Mərasim şəhidlərimizin ruhuna bir dəqiqəlik sükut, Azərbaycan və Türkiyənin Dövlət himnlərinin oxunması ilə başlanıb.

Sonra Azərbaycanın Qarsdakı Baş konsulu Nuru Quliyev, Qars valisi Türkər Öksüz, hakim Ədalət və İnkişaf Partiyasının Qars vilayət təşkilatının sədri Adəm Çalkın və Naxçıvan Dövlət Universitetinin dosenti Arzu Abdullayevin çıxışları dinlənilib.

Çıxışlarda XX əsrin bəşəri faciəsi olan Xocalı soyqırımının səbəb və məqsədlərindən danışılıb. Əminlik ifadə olunub ki, Azərbaycan və Türkiyə yaxşı gündə bir yerdə olduqları kimi Xocalı soyqırımını da heç bir zaman unutmayacaq, bu faciə qurbanlarının xatirəsini əbədi yaşadacaqlar.

Tanınmış aşıq İlqar Çiftçioğlu Xocalı şəhidlərinin xatirəsinə şeirlər oxuyub. Xocalı soyqırımının dəhşətlərini əks etdirən filmə baxılıb, eyni mövzulu sərgi ilə tanışlıq olub.

**AZƏRTAC**

# Naxçıvan Muxtar Respublikasının Bakıdakı Daimi Nümayəndəliyi naxçıvanlıların Bakıda ən çox üz tutduğu ünvandır

***Bakıda yaşayan və ya paytaxtımıza səfər edən naxçıvanlıların hər hansı bir problemlə qarşılaşdığı anda böyük inam və qürurla üz tutduğu bir ünvan var: 30 ildir ki, Naxçıvan Muxtar Respublikasını paytaxtımızda layiqincə təmsil edən Naxçıvan Muxtar Respublikasının Bakıdakı Daimi Nümayəndəliyi. Bu gün nümayəndəliyin yaradılmasından 30 il keçir. Nümayəndəlik ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi vaxtda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1992-ci il 24 fevral tarixli Qərarı ilə yaradılıb.***

Daimi Nümayəndəlik Azərbaycan Respublikasının müvafiq dövlət orqanları ilə Naxçıvan Muxtar Respublikasının müvafiq dövlət orqanları arasında gündəlik əlaqələrin təmin olunması işini həyata keçirir. Paytaxt Bakıda muxtar respublika ilə bağlı məsələlərdə yaxından iştirak edir. Bundan əlavə, muxtar respublikanın elm, təhsil, yaradıcılıq təşkilatları və digər ictimai qurumları ilə ölkənin müvafiq qurumları və müxtəlif sahələrdə fəaliyyət göstərən yaradıcı insanları arasında əlaqələrin yaradılması və genişləndirilməsi, muxtar respublikanın sosial-iqtisadi, mədəni həyatı ilə bağlı tədbirlərin təşkili və keçirilməsi də öhdəliklər sırasındadır. Eyni zamanda Naxçıvandan Bakı şəhərinə ezam edilmiş şəxslərə xidməti tapşırıqların yerinə yetirilməsində, onların burada rahat şəkildə görüşlərinin təmin olunmasına, fəaliyyətinə köməklik göstərilir. Bakıda təhsil alan naxçıvanlı tələbələrin problem və qayğıları ilə maraqlanılır, təhsillərini müvəffəqiyyətlə davam etdirmələrinə nəzarət diqqətdə saxlanılır. Həmçinin təhsilini yüksək səviyyədə başa vuran gənclərimizin müvafiq işlə təmin edilməsi, onların istəkləri nəzərə alınmaqla, Naxçıvanda işlə təmin olunmasına da müvafiq dəstək göstərilir.

Daimi Nümayəndəliyin ən önəmli, əsas vəzifələrindən biri də öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasında fəaliyyət göstərən müvafiq beynəlxalq təşkilatlarla, xüsusilə xarici dövlətlərin ölkəmizdə fəaliyyət göstərən səfirlikləri, müvafiq qurumları ilə əməkdaşlıq etmək və xarici ölkə səfirlərinin Naxçıvan Muxtar Respublikasına səfərlərinə yaxından köməklik göstərməkdir.

Ötən gün Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərovla telefon əlaqəsi saxlayıb bu əlamətdar gün münasibətilə təbriklərimizi çatdırdıq. Bəxtiyar müəllimlə səmimi söhbət zamanı bir daha vurğuladı ki, Daimi Nümayəndəliyin fəaliyyəti geniş spektrlidir, ötən 30 il ərzində nəinki Azərbaycan Respublikasında və hətta onun hüdudlarından kənarda, Ali Məclis Sədrinin rəhbərliyi ilə günü-gündən inkişaf edən, yüksələn doğma Naxçıvanımızı şərəflə təmsil edib. Həmsöhbətim dedi:

– Ötən 30 il ərzində ölkəmizdə və xarici ölkələrdə keçirilən bir çox mühüm rəsmi, mədəni tədbirlərdə iştirak edib, muxtar respublikamızın qazandığı nailiyyətləri qürurla təbliğ etmişik. Ölkəmizdə Naxçıvan Muxtar Respublikası ilə yaxından-uzaqdan bağlı olan hər hansı bir tədbir keçirilirsə, ilk növbədə, Daimi Nümayəndəlik burada Naxçıvanı təmsil edir. Bu bizi çox sevindirir ki, Daimi Nümayəndəliyin bir çox sahədə səmərəli fəaliyyəti, uğurlu bir təmsilçilik nümunəsi formalaşdırılıb, Azərbaycanın yüksək dövlət orqanları və ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun diqqət mərkəzinə çevrilib.

Son illərin yaddaqalan tədbirləri barədə ilk başda onu qeyd edim ki, ötən il Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2021-ci il 8 fevral tarixli Sərəncamı ilə muxtariyyətin hüquqi əsaslarını təmin edən Qars müqaviləsinin 100 illiyinin keçirilməsi hər bir naxçıvanlı üçün ən yaddaqalan hadisə oldu. Qars müqaviləsi Naxçıvan Muxtar Respublikasının beynəlxalq hüquqla təsbit olunmuş toxunulmazlığının əsasıdır. Bu müqavilə ilə Naxçıvan Muxtar Respublikasının ərazisi təsdiq olunmuş və beynəlxalq hüquqla qorunmaqdadır. Ermənistan Respublikasının Naxçıvana qarşı iddialarının heç bir hüquqi əsası yoxdur və bu iddialar beynəlxalq hüquq normalarına tamamilə ziddir. Həm Moskva, həm də Qars müqavilələri bundan sonra da öz hüquqi qüvvəsini saxlayacaqdır. Ali Məclis Sədrinin dediyi kimi, Qars müqaviləsi dünən olduğu kimi, bu gün də, gələcəkdə də Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəddir. Ötən il oktyabrın 13-də Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində birəsrlik tarixi boyunca mühüm siyasi əhəmiyyətə malik olan Qars müqaviləsinin 100 illik yubileyinə həsr edilmiş tədbir keçirildi. Eyni zamanda bu münasibətlə keçirilən digər tədbirlərdə iştirak etdik. Bundan başqa, təbii ki, Vətən müharibəsindəki Böyük Qələbəmiz nümayəndəliyin fəaliyyəti dövründə heç vaxt unudulmayacaq ən qürurlu hadisədir. Sevinirik, qürurlanırıq ki, 44 günlük müharibə nəticəsində Qarabağda zəfər dastanı yazan qəhrəmanlarımız sırasında Naxçıvanın qeyrətli oğulları da var. Şəhidlər verdik, amma bir qarış torpağımızı belə, düşmən tapdağı altında buraxmadıq. Şəhidlərimizin xatirəsi qarşısında baş əyir, qazilərimizə Allahdan şəfa diləyirik. Bu mənada, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində bir qrup Vətən müharibəsi şəhidinin ailə üzvlərinə orden və medalların təqdimat mərasimini ən yaddaqalan, qürurlu tariximizdən biri kimi xatırlayıram. Həmin tədbirdə şəhid ailələri ilə görüşdə də qeyd etdiyimiz kimi, torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimiz heç zaman unudulmayacaq, Vətən yolunda şəhidlik əsl qeyrət, hünər, şərəf və ləyaqət zirvəsi olduğu üçün onların əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2021-ci il 1 iyun tarixdə "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə imzaladığı Sərəncama əsasən ötən il Naxçıvanda maarifin, elmin və ictimai fikrin inkişafına mühüm töhfələr vermiş, peşəkar jurnalist kadrların hazırlanmasında əsas baza rolunu oynamış bu mətbuat orqanının yubileyi də tanınmış ziyalıların iştirakı ilə Daimi Nümayəndəlikdə yüksək səviyyədə qeyd olunub.

Bundan əlavə, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində hər il 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü böyük təntənə ilə qeyd edilir. Bu tarix bizim üçün həm də çox qürurludur. Çünki bütün soydaşlarımızı vahid amal uğrunda həmrəyliyə səsləyən bu ideya da məhz doğma Naxçıvanımızdan yüksələrək dünya azərbaycanlılarını əhatə edir. 1991-ci il dekabrın 16-da ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında "31 Dekabr – Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərarın qəbul olunması bizim şanlı tariximizin qürurlu bir səhifəsidir. Dünyada yaşayan bütün azərbaycanlıların birlik və həmrəyliyi istiqamətində atılmış ilk addım olan bu bayram xalqımızın vahid ideologiya ətrafında birləşməsində mühüm rol oynayıb. Buna görə də bu əlamətdar günün hər il təmsil etdiyimiz qurumda qeyd edilməsini bir azərbaycanlı olaraq vətəndaşlıq borcu hesab edirik.

Müsahibim vurğuladı ki, Daimi Nümayəndəlik təkcə Azərbaycan Respublikasının tərkibində muxtar dövlət statusu qazanmış Naxçıvan Muxtar Respublikası ilə Azərbaycan Respublikasının müvafiq dövlət orqanları arasında gündəlik əlaqələrin təmin edilməsini həyata keçirən təşkilat kimi deyil, eyni zamanda muxtar respublikanın xarici iqtisadi əlaqələrinin qurulmasında da yaxından iştirak edir. Naxçıvanımızı Azərbaycanın paytaxtında layiqincə təmsil etmək böyük şərəfdir. Çalışırıq ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qarşımıza qoyduğu tapşırıqları layiqincə yerinə yetirək, eyni zamanda bu gün Heydər Əliyev ideyaları ilə irəliləyən, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə davam və inkişaf etdirilən müqəddəs yolun məhz onun rəhbərliyi altında Naxçıvanda dönmədən həyata keçirildiyini, uğurlu siyasətin real nəticələrini xalqımıza, vətəndaşlarımıza, eyni zamanda beynəlxalq aləmə layiqincə, olduğu kimi çatdıraq.

Muxtar respublikada həyata keçirilən sosial-iqtisadi inkişaf və həyatın bütün sahələrində əldə olunmuş nailiyyətlər onu deməyə əsas verir ki, Naxçıvan təkcə Azərbaycanın deyil, eyni zamanda dünyanın diqqət mərkəzinə çevrilib. Daimi Nümayəndəliyin Azərbaycanda fəaliyyət göstərən diplomatik korpus nümayəndələri ilə birbaşa münasibətlərinin yaranması və eyni zamanda səfirlərin Daimi Nümayəndəliyə tez-tez gəlişi Naxçıvana olan diqqət və xüsusi marağı açıq şəkildə göstərir. Ötən 30 il ərzində Daimi Nümayəndəliyə Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici ölkələrin yüzlərlə səfiri gəlib, fəaliyyətimizlə tanış olub, Naxçıvanı tanıyıb. Bu səfirlərin böyük əksəriyyəti sonradan Naxçıvan Muxtar Respublikasına rəsmi səfərlər edib, diyarımızda bu gün həyata keçirilən uğurlu sosial-iqtisadi inkişafın nailiyyətlərinin canlı şahidi olub və bir çox hallarda mətbuata bu barədə öz fikirlərini bildiriblər. Bununla yanaşı, Daimi Nümayəndəlik bir çox ölkələrin milli bayram və əlamətdar günlər ilə bağlı təşkil edilmiş rəsmi qəbullarda da təmsil olunub. Xarici ölkə səfirlərinin Daimi Nümayəndəliyin timsalında Naxçıvana olan marağını, münasibətini, muxtar respublikaya tez-tez səfərlərini, orada həyata keçirilən işlərlə yaxından tanışlığını diqqət mərkəzinə gətirsək, fəxrlə deyə bilərik ki, bu gün Naxçıvanın real inkişaf mənzərəsini beynəlxalq aləmə çatdıra bilirik. Təbiidir ki, bütün bunlar bizi həm sevindirir, həm də fəaliyyətimizə əlavə stimul verir.

Daimi Nümayəndəliyin rəhbəri onu da diqqətə çatdırdı ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş böyük bir siyasət bu gün Naxçıvanda dönmədən, uğurla həyata keçirilir. Əldə olunan nailiyyətlər onu deməyə əsas verir ki, bu gün Azərbaycan ulu öndər Heydər Əliyevin vaxtilə düşündüyü formada inkişaf edir və bu işdə flaqman sayıla biləcək Naxçıvan Muxtar Respublikası buna əyani sübutdur. Naxçıvan Muxtar Respublikasında həyatın bütün sahələrində inkişaf göz qabağındadır. Burada insanların firavan həyatı, yaşayışı yüksək səviyyədə təmin edilib, vətəndaş məmnunluğuna tam nail olunub. Bu qədim diyar bir çox sahələrdə vətəndaş məmnunluğuna gətirib çıxaran cəmiyyətin qurulmasında nümunə rolunu oynayır. Ölkə Prezidenti cənab İlham Əliyevin Naxçıvana müxtəlif vaxtlarda səfərləri zamanı bu diyarın nail olduğu inkişafı yüksək qiymətləndirməsi bizim üçün əsas göstəricidir.

Naxçıvan Muxtar Respublikasında təsərrüfat və sosial-mədəni quruculuqda əldə edilmiş nailiyyətlərin təbliği və buna yönəlik tədbirlərin, sərgilərin, ekspozisiyaların, mühazirələrin təşkil olunması, müasir filmlərin nümayişi, yaradıcı kollektivlərin çıxışlarının təklifinə və təşkilinə köməklik göstərmək də Daimi Nümayəndəliyin fəaliyyət sahələrinə daxildir. Muxtar respublikada həyatın bütün sahələrində əldə olunmuş nailiyyətləri, uğurları, bəzi hallarda tam statistik məlumatları mətbuata təqdim edir, beləliklə, Azərbaycan ictimaiyyətinin, eyni zamanda xarici ölkələrin Bakıdakı səfirliklərinin müəyyən mənada marağına səbəb olan faktları açıqlayırıq.

Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyinin ölkəmizin paytaxtında yaşayan naxçıvanlılar üçün hansı məsələlərin həllində vasitəçi olması ilə bağlı sualımızı Daimi Nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov belə cavablandırdı:

– Daimi Nümayəndəlik Bakı şəhərində yaşayan naxçıvanlılar üçün dayaqdır, ümid yeridir, – desək, doğru olar. Çünki bizə müraciət edənlərin hər biri ilə yaxından maraqlanırıq. Daxil olan ərizə və şikayətlərə baxmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək bizim vəzifələrimiz sırasındadır. Xüsusilə də elektron müraciətlərə baxılması, müvafiq qaydalara uyğun tədbirlərin görülməsi prosesi tərəfimizdən həyata keçirilir. Bu mənada, vurğulayım ki, son illər Daimi Nümayəndəlikdə Bakı şəhərində və respublikamızın digər bölgələrində yaşayan, Naxçıvanda daimi qeydiyyatda olan vətəndaşlara şəxsiyyət vəsiqələrinin verilməsi işi təşkil olunub. Bu da çox sevindirici haldır. Həyata keçirilən bu kampaniya vətəndaşlar tərəfindən çox böyük rəğbət və sevinc hissi ilə qarşılanır. Əvvəllər insanlar uzaq məsafə qət edərək şəxsiyyət vəsiqəsi əldə etmək və ya dəyişdirmək üçün Naxçıvana gətməli olurdular. Bu gün artıq o problem də öz həllini tapıb. Bakıda və digər rayonlarda yaşayan Naxçıvan sakinləri artıq çox rahat şəkildə müraciət edərək Daimi Nümayəndəlikdə qeyd olunmuş vaxtlarda şəxsiyyət vəsiqələri ilə bağlı məsələlərini həll edə bilirlər.

Bir məqamı da xüsusi vurğulamaq yerinə düşər. Vətən müharibəsində parlaq qələbə çalan Ordumuz bizi torpaqlarımıza qovuşdurmaqla həm də Naxçıvanın ölkəmizin əsas ərazisi ilə nəqliyyat əlaqələrinin bərpasına böyük töhfə vermiş oldu. İndi artıq reallaşması üzərində konkret işlər görülən Zəngəzur dəhlizi açıldıqdan sonra doğma Naxçıvanımız regionda və dünya miqyasında mühüm bir tranzit mərkəzə çevriləcək. Naxçıvan Muxtar Respublikası daha böyük inkişaf mərhələsinə qədəm qoyacaq. Bütün bunlarla yanaşı, naxçıvanlılar üçün ölkəmizin digər bölgələrinə gediş-gəliş məsələləri artıq daha rahat olacaq. İndiki vəziyyətdə isə bu gediş-gəlişin əsas vasitəsi hava nəqliyyatıdır. Bilet əldə etmək sarıdan bəzən çətinliklə üzləşən həmyerlilərimiz bizə müraciətlər ünvanlayır. Bu müraciətlərin hər birinə operativ cavab verir və problemin həlli istiqamətində köməklik göstəririk.

*Biz də "Şərq qapısı" qəzetinin kollektivi və çoxsaylı oxucularımız adından Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyinin kollektivinə təbriklərimizi çatdıraraq şərəfli və məsuliyyətli fəaliyyətlərində uğurlar arzu edirik.*

**Gülcamal TAHİROVA**

*Naxçıvan Muxtar Respublikasında uşaqların sağlam böyümələri, lazımi təhsil və tərbiyə almaları üçün yaradılan hərtərəfli şərait onların yüksək dövlət qayğısı ilə əhatə olunmasından xəbər verir. Təhsil və səhiyyə müəssisələrinin yenidən qurulması, idman infrastrukturunun müasirləşdirilməsi istiqamətində görülən işlər bunu aydın nümayiş etdirir. Uşaqların xüsusi dəstəyə ehtiyacı olan həssas qrupunu isə məhdud sağlamlıq imkanlarına malik olanlar təşkil edir. Ölkə başçısı cənab İlham Əliyev demişdir:* ***“Azərbaycan cəmiyyətində fiziki imkanları məhdud olan insanlara münasibət müsbətdir. Bu, cəmiyyətimizin əlamətidir. Heç də hər yerdə belə deyildir. Dövlət siyasəti də bu istiqamətdə aparılır”.***

*Dövlət proqramı icra olunur*

## Sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası ilə bağlı tədbirlər davam etdirilir



Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası və onların sosial statusunun bərpası istiqamətində ardıcıl tədbirlər görülür. Bu kateqoriyadan olan uşaqların funksional qabiliyyətlərinin bərpa edilməsi və ictimai həyatın bir çox sahələrində iştirakı üçün hərtərəfli şərait yaradılır. Onların sosial müdafiəsi ilə bağlı tədbirlər ötən il də diqqətdə saxlanılmış, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 15 mart tarixli Sərəncamı ilə “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı” təsdiq olunmuşdur.






Yeni Dövlət proqramının yönəldiyi istiqamətlərdən biri sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbində davamlılığın təmin edilməsidir. Çünki təhsil bu sosial kateqoriya nümayəndələrinin cəmiyyətə uyğunlaşması, əmək fəaliyyətinə və ailə həyatına hazırlanması üçün ən mühüm vasitələrdən biridir. Onların təhsili üçün maneəsiz mühitin yaradılması bu uşaqların sosiallaşması baxımından həyati əhəmiyyət kəsb edir. Ötən il Dövlət proqramının icrasına uyğun olaraq müvafiq kateqoriyadan olan 37 uşaq məktəbəqədər, 56 uşaq isə ümumtəhsil müəssisələrinə cəlb edilmişdir. Hərəkət və görmə qabiliyyəti məhdud uşaqlar üçün təhsil imkanlarının yaradılması istiqamətində işlər davam etdirilmişdir. Belə ki, 2021-ci ildə 3 hərəkət qabiliyyəti məhdud uşaq üçün distant tədris şəraiti yaradılmış, onlara dərs ləvazimatları, məktəbli geyimi və zəruri texniki avadanlıqlar verilmişdir. Görmə Qabiliyyəti Məhdud Uşaqlar üçün Xüsusi İbtidai Məktəbdə təhsil alan uşaqlar brayl əlifbasına uyğun 40 dərslik və tədris vəsaiti ilə təmin olunmuşdur. Eyni zamanda həmin məktəbi bitirən 5 uşağın təhsilini sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli respublika xüsusi internat məktəbində davam etdirməsi, 1 uşağın isə Bakı şəhər Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün 3 nömrəli Respublika xüsusi internat məktəbində təhsilə başlaması üçün lazımi sənədlər hazırlanaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyinə göndərilmişdir.

Məhdud sağlamlıq imkanlarına malik uşaqlar üçün keyfiyyətli təhsil şəraitinin yaradılması zərurəti bu prosesdə iştirak edən müəllimlərin peşəkarlıq səviyyəsinin də yüksəldilməsini şərtləndirir. Ümumtəhsil və məktəbəqədər təhsil müəssisələrində müəllimlərin inklüziv təhsil üzrə bilik və bacarıqlarının artırılması ilə bağlı görülən işlər sağlamlıq imkanları məhdud uşaqların təhsili sahəsində kadr potensialını gücləndirməkdədir. Ötən il bu məqsədlə 35 ibtidai sinif müəllimi üçün “İbtidai sinif şagirdlərində diqqət əskikliyi və hiperaktivlik”, “Məktəbyaşlı uşaqlarda görülən nitq qüsurlarının təhlili”, “İbtidai sinif şagirdlərində psixi inkişaf ləngiməsi və əqli gerilik”, əlavə olaraq, 18 psixoloq və 12 ibtidai sinif müəllimi üçün “Autizmli uşaqların cəmiyyətə qazandırılması” mövzularında seminarlar təşkil olunmuşdur. Eyni zamanda 40 ibtidai sinif müəllimi ilə “Ümumtəhsil məktəblərində hiperaktiv şagirdlərə psixoloji yanaşma” mövzusunda elmi-praktik konfrans keçirilmişdir. Proqramın icrasına uyğun olaraq 770 sağlamlıq imkanları məhdud uşağın təhsil aldığı 12 məktəbəqədər, 9 məktəbdənkənar, 71 ümumtəhsil müəssisəsi, eləcə də 2 lisey və 20 musiqi məktəbində monitorinqlərin aparılması bu sosial kateqoriyaya məxsus uşaqlar üçün yaradılan təhsil şəraitinin daim diqqətdə saxlanıldığını deməyə əsas verir.

Sağlamlıq imkanları məhdud uşaqların öz fərdi qabiliyyətlərinə və maraqlarına uyğun peşə təhsilinə cəlbi də mühüm önəm kəsb edir. Peşə hazırlığı bir tərəfdən onların xüsusi istedadlarının üzə çıxarılması, digər tərəfdən əmək fəaliyyətinə hazırlanması baxımından yeni imkanlar açır. Ötən il Naxçıvan Regional Peşə Tədris Mərkəzi, Naxçıvan Şəhər Peşə Liseyi və Ordubad Texniki Peşə və Sürücülük Məktəbində təşkil olunan dərzi, toxucu, xalçaçı, kompüter istifadəçisi, bərbər və bərbər-manikürçü kurslarını bitirən, ümumilikdə, 11 sağlamlıq imkanları məhdud uşaq sertifikatla təmin olunmuşdur. Həmçinin bu dövrdə sağlamlıq imkanları məhdud uşaqların təhsil aldığı 169 ümumtəhsil məktəbində peşəyönümlü məşğələlərin təşkili bu kateqoriyadan olan uşaqların peşə seçiminə köməklik məqsədi daşımışdır.

Sağlamlıq imkanları məhdud şəxslərin təhsili sahəsində dəstəkləyici texnologiyaların tətbiqi görülən işin effektivliyini artıran faktordur. Bu baxımdan Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin kitabxana fondunun zənginləşdirilməsi mütərəqqi əhəmiyyətə malikdir. Ötən il mərkəzdə fəaliyyət göstərən audio-kitabxana xidmətinə 24 yeni əsər əlavə olunmuş, onların ümumi sayı 1494-ə çatdırılmışdır.

Sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtının səmərəli təşkili onların reabilitasiyasını təmin etməyin ən faydalı üsullarındandır. Bu məqsədlə uşaqların idman oyunlarında, müxtəlif yarış və müsabiqələrdə iştirakı üçün şəraitin yaradılması onların həyat fəaliyyətinin məhdudlaşmasının aradan qaldırılmasına xidmət edir. Ötən il Dövlət proqramının icrası məqsədilə muxtar respublikanın şəhər və rayonlarında velosiped, stolüstü tennis, boccia, dart, üzgüçülük, şahmat və yüngül atletika idman növləri üzrə keçirilən 34 müsabiqədə 399 sağlamlıq imkanları məhdud uşağın iştirakı təmin olunmuşdur. Ölkə səviyyəli paralimpiya idman oyunlarında Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının idmançılarından 2-si ikinci, 1-i isə üçüncü yerə layiq görülmüşdür. İl ərzində federasiyanın müvafiq idman bölmələrinə 25 sağlamlıq imkanları məhdud uşaq cəlb olunmuşdur. Uşaqların istedadlarının üzə çıxarılması istiqamətində işlər davam etdirilmiş, bu sosial kateqoriyanın nümayəndələrindən ibarət “Ümid” musiqi qrupu yaradılmışdır. Ötən il müxtəlif sərgilər, bilik yarışları, oxunması zəruri olan kitabların müzakirəsi, nümunəvi məşğələlər, yaradıcılıq müsabiqələri, ekskursiyalar olmaqla, ümumilikdə, 70-ə yaxın tədbirdə müvafiq kateqoriyadan olan 500-dən çox uşağın iştirakı təmin edilmişdir.

Məhdud sağlamlıq imkanlarına malik uşaqların cəmiyyətə qazandırılmasında sosial reabilitasiya tədbirləri qədər, tibbi və defektoloji xidmətin təşkili də vacib əhəmiyyət kəsb edir. Görülən işlər erkən yaşlarda sağlamlıq imkanlarının məhdudluğunun aradan qaldırılması üçün şərait yaradır. Bu kateqoriyadan olan uşaqların bərpa müalicəsinə, psixoloji müayinələrə və müxtəlif terapiyalara cəlb olunması onlarda sağlam vərdişlərin formalaşdırılması ilə nəticələnir. Ötən il Naxçıvan Uşaq Bərpa Mərkəzində 279 sağlamlıq imkanı məhdud uşağın müalicəsi təşkil olunmuşdur. Naxçıvan Regional İnformasiya Mərkəzində müvafiq kateqoriyadan olan 171 uşaqla reabilitasiya tədbirləri aparılmış, Defektoloji bölmənin Şərur rayon filialına 39, Ordubad rayon filialına 35 uşaq cəlb edilmişdir. Mart ayından etibarən yeni terapiyaların tətbiqinə başlanılmış, il ərzində bunlardan “Kukla” terapiyasına 35, “Nağıl” terapiyasına isə 69 uşaq cəlb olunmuşdur. Eyni zamanda mərkəzin psixoloji dəstək xidmətinə 63 sağlamlıq imkanları məhdud uşaq cəlb edilmişdir. Onların hər biri ilə müəllim və psixoloqlar tərəfindən fərdi qaydada konsultasiya aparılmış və müvafiq reabilitasiya tədbirləri həyata keçirilmişdir. Psixoloji dəstək xidmətinin təşkili sağlamlıq imkanları məhdud uşaqların şəxsiyyətinin korreksiyası baxımından mühüm rol oynamışdır.

**“Şərq qapısı”**

## İcbari tibbi sığorta səhiyyə sisteminin ən effektiv və uğurlu modelidir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 3 may tarixli müvafiq Fərmanı ilə muxtar respublikada icbari tibbi sığortanın tətbiqinə başlanılmış və digər sahələrə olduğu kimi, tibbi sığorta sahəsinə göstərilən yüksək diqqət və qayğı sayəsində muxtar respublikanın bütün ərazisində icbari tibbi sığortanın tətbiqi uğurla həyata keçirilir. Əldə olunmuş uğurlu nəticələr bunu deməyə əsas verir ki, icbari tibbi sığorta səhiyyə sisteminin ən effektiv və uğurlu modelidir.***

İcbari tibbi sığorta əhalinin sosial müdafiəsi forması olaraq sığorta hadisəsi zamanı əhaliyə icbari tibbi sığortanın maliyyə mənbələri hesabına ilkin səhiyyə xidmətlərinin, təcili və təxirəsalınmaz tibbi yardımın, habelə sığortaolunanlara xidmətlər zərfində nəzərdə tutulmuş şərtlər çərçivəsində tibbi xidmətlərin göstərilməsinə təminat verən dövlətin hüquqi, iqtisadi və təşkilati tədbirlər məcmusudur.

İcbari tibbi sığorta haqlarının sığortaolunanların gəlirlərindən tutulmasına 1 yanvar 2021-ci il tarixdən başlanılmışdır. Sığortaolunan dedikdə sağlamlığı icbari qaydada sığortalanmış fiziki şəxslər nəzərdə tutulur. Tibbi sığorta haqlarının yığılması qanunla müəyyən olunmuş məbləğlərdə və dərəcələrdə Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti tərəfindən həyata keçirilir, belə ki, Tibbi sığorta haqqında Qanunun 15-10.1.3-cü maddəsinə əsasən Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq sahibkarlıq fəaliyyətinin və ya digər vergi tutulan əməliyyatların müvəqqəti dayandırıldığı hallar istisna olmaqla, vergiödəyicisi kimi vergi uçotuna alınmış fiziki şəxslər – fərdi sahibkarlar, xüsusi notariuslar, vəkillər kollegiyasının üzvləri, mediatorlar, sərnişin və yükdaşıma fəaliyyəti ilə məşğul olan şəxslər sığortalı qismində özləri çıxış etdiyindən minimum aylıq əməkhaqqının 4 faizi miqdarında icbari tibbi sığortahaqqı ödəyirlər. Qeyd etməliyik ki, 2022-ci il üzrə minimum aylıq əməkhaqqının miqdarı 300 manat müəyyən olunduğundan cari ildən fiziki şəxslərin ödəyəcəyi icbari tibbi sığortahaqqının məbləği 12 manat (300 x 4%=12) təşkil edir.

Mülki-hüquqi müqavilələr əsasında işləri (xidmətləri) yerinə yetirən fiziki şəxslər üzrə, onları işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edən şəxslər tərəfindən tutulmaqla aylıq gəlirinin 8000 manatadək olan hissəsinin 2 faizi, 8000 manatdan yuxarı olan hissəsinin 1 faizi miqdarında icbari tibbi sığortahaqqı hesablanaraq ödənilməlidir.

Nümunə olaraq “A” müəssisəsi vergi uçotunda olmayan fiziki şəxslə mülki hüquqi müqavilə bağlayaraq onu təmir işinə cəlb etmiş və bu işin müqabilində ona 1000 manat ödəniş etmişdir. Bu halda müəssisə tərəfindən həmin fiziki şəxsə edilən 1000 manat ödənişdən ödəmə mənbəyindən 2 faiz dərəcə ilə 20 manat məbləğində (1000*2%=20) icbari tibbi sığortahaqqı hesablanaraq tutulmalıdır.

1 yanvar 2022-ci il tarixdən etibarən qeyri-dövlət və qeyri-neft sektorunda (sahibkarlıq fəaliyyəti sahəsində) fəaliyyət göstərən işəgötürən və işçilər aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manata qədər olan hissəsindən 2 faiz, 8000 manatdan yuxarı olan hissəsindən 0,5 faiz miqdarında icbari tibbi sığortahaqqı ödəyirlər.

Nümunə olaraq “A” özəl müəssisəsində işləyən sığortaolunanın aylıq əməkhaqqı 700 manat olmuşdur. Bu halda işəgötürən tərəfindən işçinin əməkhaqqından 2 faiz, yəni 14 manat (700*2 faiz), işəgötürənin öz vəsaiti hesabına 2 faiz, yəni 14 manat (700*2 faiz), ümumilikdə isə 4 faiz olmaqla, 28 manat icbari tibbi sığortahaqqı hesablanaraq ödənilir.

Tibbi sığorta haqqında Qanuna əsasən əmək müqaviləsi və ya mülki hüquqi müqavilə əsasında işləməyən və sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan Azərbaycan Respublikasının vətəndaşları icbari tibbi sığortahaqqı ödəməkdən azaddır və istifadə etdikləri tibbi xidmətlərin tarifi dövlət vəsaiti hesabına ödənilir. Əlavə olaraq qeyd edə bilərik ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən vergiödəyicisinin sahibkarlıq fəaliyyəti və ya digər vergi tutulan əməliyyatları müvəqqəti dayandırıldığı halda vergiödəyicisi kimi vergi uçotuna alınmış fiziki şəxslər (fərdi sahibkarlar) icbari tibbi sığortahaqqı ödəməkdən azaddır.

Son olaraq qeyd etməliyik ki, ötən dövr ərzində muxtar respublikada icbari tibbi sığortanın tətbiqi hərtərəfli təşkil olunmuş, vətəndaşların sağlamlığının qorunması və tibbi xidmətlərə əlçatanlığının təmin olunması daim diqqət mərkəzində saxlanılmışdır.

***Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi***

## Klinik protokolların təqdimatı keçirilib



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsi və Elmi tibbi şurası tərəfindən klinik praktikada istifadə olunmaq üçün hazırlanan 73 klinik protokolun Kəngərli və Şərur Rayon Mərkəzi xəstəxanalarında təqdimatı keçirilib. Səhiyyə nazirinin müavini Samrat Gəncəyeva müxtəlif ixtisaslı həkim və baş mütəxəssislərin birgə əməyi ilə hazırlanan protokollar barədə məlumat verib, onların müayinə və müalicə prosesində əhəmiyyətindən bəhs edib.

Nazirliyin Tibbi yardımın təşkili şöbəsinin müdiri Süleyman Cəfərov bildirib ki, 2021-ci il yanvar ayının 1-dən icbari tibbi sığortanın muxtar respublika ərazisində tətbiq edilməsi, vətəndaşların etibarlı, keyfiyyətli, səmərəli tibbi xidmətlərdən yararlanması, sığortanın xidmətlər zərfinə daxil olan tibbi prosedurlardan yararlanması klinik protokolların zəruriliyini daha da artırıb. Diqqətə çatdırılıb ki, müasir dövrdə dünyanın əksər ölkələrinin səhiyyə sistemi qarşısında duran vəzifə, həyata keçirilən islahat və dəyişikliklərin başlıca məqsədi tibbi yardımın keyfiyyətinin yüksəldilməsidir. Tibb elminin şaxələnməsi, tibbi biliklərin dərinləşməsi, əczaçılıq sənayesinin sürətli inkişafı, yeni müalicə üsullarının və dərman vasitələrinin tətbiqi, ənənəvi müalicə üsulları və istifadədə olan dərman vasitələri haqqında yeni biliklərin meydana çıxması praktik həkimlərin məsuliyyətini artırıb. Qeyd edilməlidir ki, nazirliyin 26 fevral 2021-ci il tarixli kollegiyasında təsdiq edilən 73 klinik protokol bu günlərdə “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində hər biri 150 tirajla nəşr olunaraq profillər üzrə müvafiq səhiyyə müəssisələrinə paylanılıb.

Klinik protokolların təqdimatı həftə ərzində Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası, Kardioloji Mərkəz və Naxçıvan Şəhər Poliklinikasında da həyata keçirilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Əfsanəyə dönən ömürlər*

## Şəhidlik ölümsüzlük zirvəsidir



Yenə bir Vətən qəhrəmanının, torpaq uğrunda canından keçən oğulun doğum günü ərəfəsində məzarıyla üz-üzə dayanmışam. Əzəli dədə-baba torpaqlarımızda öz qanları bahasına dalğalandırdıqları üçrəngli bayrağımız bu gün burada – onun məzarı üstündə də dalğalanır. Bayrağımıza baxdıqca ürəyimdən: – Bax sənin müqəddəsliyin uğrunda gözünü qırpmadan minlərlə can fəda oldu sözləri keçir:

*Doğuldu o Günəş, gəldi yeni gün,*
*Açıldı xalqının düşdüyü düyün.*
*Qoyuldu üstünə çələngin, gülün,*
*Qələbə müjdəsin gətirdik sənə,*
*Rahat qovuş artıq ölməzliyinə!*

Bu o şəhiddir ki, Murovdağ döyüşlərində belə yüksəkliyə ucalıb. Ölümündən sonra "Rəşadət" ordeni, "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunan Mərhəmət Həmzəyev 1997-ci il fevralın 24-də Şahbuz rayonunun Keçili kəndində anadan olmuşdu. Keçili kənd tam orta məktəbinin IX sinfini bitirərək Heydər Əliyev adına Hərbi Liseyə qəbul edilmişdi. Hərbi liseyi müvəffəqiyyətlə bitirdikdən sonra elə həmin il Heydər Əliyev adına Ali Hərbi Məktəbə qəbul olmuşdu. 2019-cu ildə zabit formasını geyinib leytenant rütbəsi ilə Şəmkir rayonunda Vətənin keşiyində dayanmağa başlamışdı. Mərhəmət Həmzəyevin qəhrəmanlığı hələ 2020-ci ilin Tovuz döyüşlərindən məlum idi. Həmin il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində hücumlara məruz qalan Azərbaycan Ordusu əks-hücum əməliyyatları ilə ərazi bütövlüyümüzün bərpa olunması uğrunda döyüşlərə başladı.

Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edən Mərhəmət elə bu ölüm-dirim mübarizəsində şəhid oldu. Uzun müddət nəşi tapılmayan Mərhəmətin qohum-əqrabası, əzizləri dekabrın 22-də onun nəşinin gətirilməsi xəbərini alıblar. Elə həmin gün şəhidimiz böyük izdihamla Şahbuz rayonunun Keçili kəndində dəfn edilir. Uzun müddət bir yerdə xidmət edən, müharibə dövründə də birlikdə döyüşdüyü döyüş yoldaşı Ələkbər Ələkbərov şəhid dostunu belə xatırlayır: Mərhəmət səbir, dözüm, qorxmazlıq nümunəsi idi. Heç kimi incitməz, əsgərlərinə qayğı ilə yanaşardı. Ürəyi çox təmiz, cəsur, mərifətli, yerini bilən insan idi. Belə deyim, qarşısındakı insana mövqeyindən asılı olmayaraq, hörmət qoyan, layiqdirsə dəyər verən biri idi. Mənə qardaş əvəzi olan Mərhəmət ürəyimi dağlayıb getdi. Onun haqqında dastan danışardım, amma boğazım düyünlənir. Bizim qardaşlığımız dünyada bitmiş ola bilər, amma qəlbimdə biz hər zaman qardaş qalacağıq. Mərhəmətin döyüşdə göstərdiyi şücaətdən danışmaya bilmərəm. Murovdağ istiqamətində döyüşlərdə birlikdə irəliləyirdik. O, dağlara elə dırmanırdı ki, sanki qanad açıb uçmaq istəyirdi. Düşünürəm ki, bu vüqarı doğulub-böyüdüyü, ən gözəl yeniyetməlik illərini keçirdiyi Keçili kəndinin dağlarından almışdı.



Anası Qərənfil xanım deyir ki, telefonla necə olduğunu soruşanda: – Necə ola bilərik, illərdir, həsrətlə gözlədiyimiz qisas günü gəlib. İnşallah, torpaqlarımız işğaldan azad olunsun, müjdəli xəbərlərlə geri dönəcəyəm, – dedi. O müjdəli xəbərləri də aldıq, amma Mərhəmətsiz. Şəhid olmamışdan əvvəl nişanlısı ilə danışan nakam balam deyib ki, müharibədir, hər şey ola bilər. Səbirli ol, dözümlü ol. Oğlum böyük ehtiramla, sevgiylə qarşılandı, torpağa tapşırıldı. Onun yoxluğuna alışa bilməsəm də, düşünürəm ki, oğlum Vətən, torpaq uğrunda şəhid olub. Bu gün bir gözüm ağlayanda, digər gözüm gülür. Çünki balam qəhrəmandır. Təsəllim isə odur ki, Mərhəmət kimi oğullarımız unudulmurlar.

Övladı haqqında danışanda qəhərlənən, bəzən də bunu gizlətməyə çalışan, ürəyi oğul həsrəti ilə yanan, xatirələri dünyaya sığmayan, lakin bu barədə söhbət edərkən kövrəlib danışmağa çətinlik çəkən şəhid atası Rizvan əminin gözlərində bütün şəhidlərimizin nisgilini gördüm. Ömrünü övladlarına həsr edən, onları böyüdüb ərsəyə yetirən, lakin doyunca sevib-oxşamağa macal tapmayan şəhid valideynləri ilə qarşı-qarşıya həmsöhbət olmaq şərəfli olduğu qədər də çətindir! Gözlərində kədər olmasına baxmayaraq, bizimlə qürurlu və bir o qədər də fəxarət dolu sözlərlə söhbət etməyə çalışan Rizvan əmi deyir: – Oğlumdan xəbər tuta bilmirdik. Dost-tanışlar təsəlli verirdilər. Amma ürəyim hiss etmişdi sanki. Müharibə bitdi, yenə də ondan xəbər gəlmirdi. Dekabr ayının 14-ü mənə zəng edib oğlumun şəhidlik xəbərini verdilər. Ancaq ailəmizlə bu xəbəri bölüşməyə gücüm çatmadı, o günə qədər ki, artıq dekabr ayının 22-si cənazə gələcəkdi. Özümdə güc toplayıb yaxınlarımıza xəbəri verəndə isə... Amma bir o qədər də fəxrlə qarşıladılar. Ətrafdakıların bu cür reaksiyası mənə də güc verdi ki, oğlumu əbədi mənzilə layiqincə yola salım.

Onu da deyim ki, ailə ilə görüşmək üçün yaşadıqları mənzilə gedərkən həyətə daxil olmamış yolun kənarında bulaq-abidə ilə qarşılaşdıq. Öyrəndik ki, şəhidimiz Mərhəmətin xatirəsinə inşa edilmiş bulağın ətrafında muxtar respublikamızın bütün şəhidlərinin fotosu yer alır. Çınqıllı bulağından sərinliyini, şəhidlərimizdən isə saflığını, təmizliyini alan bu bulaqdan kənd sakinləri və buraya gələn qonaqlar istifadə edirlər.

... Mərhəmət kimi yüzlərlə oğul sübut etdi ki, xalqımızın igid övladları ölkəmizin ən çətin günündə canını belə, verməyə hazırdırlar. Belə qəhrəmanların ömür yolu isə gələcək nəsillərə örnəkdir. Onları unudulmağa qoymamaq bir vətəndaş kimi mətbuat nümayəndələrinin də şərəfli vəzifəsidir. İllər keçsə də, uşaqdan-böyüyə hər bir vətəndaş şəhidlərimizi böyük ehtiramla anacaq, onların qəhrəmanlıqlarını örnək sayacaqlar.

Cənnətindəki növbəti doğum günün mübarək, şəhidim. Adın məzar daşına yazılsa da, özün hər zaman xalqın ürəyində, ananın ağarmış saçlarında və səni sevənlərin məzarın önündə heykəlləşmiş baxışlarında yaşayacaqsan.

✍ **Telli MƏMMƏDOVA**



## Mütəxəssis toplantısı keçirilir

Əlahiddə Ümumqoşun Orduda snayperlərin peşəkarlığının artırılması məqsədilə mütəxəssis toplantısı keçirilir.

Toplantının planına əsasən atəş mövqeyi seçərək maskalanmış snayperlər müxtəlif üsul və vasitələrdən istifadə edərək sərrast atəşlə hədəfin məhv edilməsi və digər fəaliyyətləri məşq edirlər.

Döyüş meydanında hədəfləri zərgər dəqiqliyi ilə məhv etmək üçün snayperlərə çətin şəraitlərdə təmkinli və yüksək fiziki hazırlığa malik olmaq kimi xüsusiyyətlər aşılanır.

Toplantıda snayperlərin müxtəlif şəraitlərdə saatlarla müşahidə aparma, həyatdaqalma və dəqiq atəşaçma bacarıqları təkmilləşdirilir.

**Nəriman NƏCƏFOV**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyatı hansı qaydada həyata keçirilir?*

***Cavab:*** Azərbaycan Respublikasında 15 gündən artıq müvəqqəti olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər olduğu yer üzrə qeydiyyata alınmalıdırlar. Bunun üçün əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər və ya onların qaldığı yerin (mehmanxana, sanatoriya, istirahət evi, pansionat, kempinq, turist bazası, xəstəxana və ya digər belə ictimai yerlər) müdiriyyəti və ya mənzilin, digər yaşayış sahəsinin sahibi əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin ölkəyə gəldiyi vaxtdan 15 gün ərzində həmin şəxsin olduğu yer üzrə qeydiyyata alınması haqqında ərizə-anketi və onun pasportunun (digər sərhədkeçmə sənədinin) surətini Dövlət Miqrasiya Xidmətinin internet informasiya ehtiyatı, elektron poçt vasitəsilə və ya şəxsən Dövlət Miqrasiya Xidmətinə təqdim etməlidir.

Eyni zamanda əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olduğu yeri dəyişdikdə, o, yeni olduğu yerə gəldiyi vaxtdan 5 iş günü ərzində yuxarıda nəzərdə tutulmuş qaydada yeni olduğu yer üzrə qeydiyyata alınmalıdır. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyatı ilə bağlı qaydaları pozan şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada inzibati məsuliyyətə cəlb edilirlər.

Ölkə vətəndaşları, həmçinin əcnəbilər və vətəndaşlığı olmayan şəxslər miqrasiya sahəsini əhatə edən və bu sahədə maraqdoğuran müxtəlif mövzularla bağlı suallarını Dövlət Miqrasiya Xidmətinin ***202*** Miqrasiya Məlumat Mərkəzinə, *miqrasiya.nakhchivan.az* saytının e-mail adresinə və ya xidmətin rəsmi "Facebook" (Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti) və "İnstagram" (nmr_miqrasiya_xidmeti) sosial şəbəkə hesablarına ünvanlayaraq ətraflı məlumat əldə edə bilərlər.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

*Yeni nəşrlər*

## Naxçıvanın şeir tablosu




"Şərurun səsi" qəzetinin nəzdində fəaliyyət göstərən "Şərur" ədəbi birliyi bu gün Azərbaycan ədəbiyyatına və elminə bəxş etdiyi tanınmış alim və şairləri ilə qürur duymaqda haqlıdır. İlk qələm təcrübələri ilə məhz bu dərnəyin məşğələlərində iştirak edən, məsləhətlər alan onlarla qələm sahibi bu gün ölkəmizdə tanınır.

Ötən bazar günü keçirilən məşğələdə öz qələm təcrübələrini iştirakçılara təqdim edən Sabrina Gültəkin hazırda rayonun Aralıq kənd tam orta məktəbinin IX sinfində təhsil alır. Dərs əlaçısı olan məktəbli şeir həvəskarının ilk kitabı ötən il – VIII sinifdə oxuyarkən işıq üzü görüb. "Mənim anam mələkdir" adlanan bu nəşrin ayağı sayalı olub. Bundan sonra o, "Şəhid Vüsalın dastanı", "Mahnın da, adın da dastana döndü", "Mənim doğma Naxçıvanım" adlı şeirlər və poemalar kitabları ilə oxucuların görüşünə gəlib. Qeyd edək ki, "Mənim doğma Naxçıvanım" adlı kitabından əvvəl Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov gənc şeir həvəskarını qəbul edərək ona tövsiyələrini verib, gələcəkdə daha böyük uğurlar arzulayıb. "Şərur" ədəbi birliyinin növbəti məşğələsində həmin poemanın "Şahbuz-Batabat" parçasını oxuyan Sabrinanın doğma yurdumuzun hər bir guşəsinə vurğunluğunu hiss etmək çətin deyildi. Həmin gün mənə də yeni kitabını təqdim edən Sabrina Gültəkinin "Mənim doğma Naxçıvanım" poeması Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigarın "Doğma Naxçıvana məhəbbətlə dolu ürək" adlı ön sözü ilə açılır. Yeri gəlmişkən qeyd edim ki, poemanın hər sətrində belə, qədim diyarımıza məhəbbətin ifadəsini görürük.

Proloq, doqquz nəğmə və epiloqdan ibarət poemanın ilk sətirlərindən müəllif bu qədim yurd yerinin tarixinə ekskurs edir; özünəməxsus ifadə tərzi ilə oxucunu da o tarixə aparır:

*Tarixlər şahidi ulu Naxçıvan!*
*Mənim ana yurdum, doğma məkanım.*
*Mən sənə vurğunam əzəldən bəri,*
*Səndən doyarammı, ey Naxçıvanım?*

Nuhdan üzü bəri gələn yolda yaşanmış təzadlarla dolu tarixin səhifələri vərəqləndikcə gözlərimiz önündə qürur duymağa layiq məqamlar yaddaşımıza yazılır. Yadellilərə, torpağımızın yeraltı və yerüstü sərvətlərinə, torpağımıza göz dikənlərə qarşı mətanətlə, yurd sevgisi ilə cavab verənlərin qəhrəmanlığı qarşısında baş əyirik; Naxçıvanın yetişdirdiyi Əcəmi, Mirzə Cəlil, Hüseyn Cavid, Yusif Məmmədəliyev və başqaları ilə fəxr etməkdə haqlı olduğumuzu təsdiq edirik.

Bir azdan müəllif bizi rayonlarımıza aparır. Yaxşı cəhət kimi qeyd edək ki, müxtəlif bölgələrimizin tərənnümündə hər rayonun özünəməxsus gözəlliklərini rəssam fırçası ilə poetikləşdirməyə çalışır:

*Sədərək – yurdumun qeyrət qalası,*
*Burada insanlar məğrurdur, mərddir.*
*Bir qeyrət simvolu olub Sədərək*
*Dosta mehribandır, düşmənə sərtdir,*

– deyən Sabrina Gültəkin bugünkü Naxçıvanın simasını yeni ştrixlərlə oxucuya təqdim edir. Poemada bütöv bir Naxçıvan tablosu yaratmağa səy göstərən gənc şeir həvəskarının ilham aldığı bu tablo Naxçıvanı yaxından tanımayanlara da tanıdır. Ötən gün təhsil aldığı məktəbdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin və Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən kitabın təqdimatında bu barədə geniş danışılıb. Təbii ki, 15 yaşlı bir məktəblinin ürəyindən süzülərək ərsəyə gələn "Mənim doğma Naxçıvanım" poeması Sabrinanın uğuru sayıla bilər. Biz də ona həm təhsildə, həm də gələcək bədii yaradıcılığında yeni uğurlar arzulayırıq.

✍ **Muxtar MƏMMƏDOV**

## "Qış liderlik məktəbi"nə start verilib

Bununla əlaqədar olaraq Ağbulaq İstirahət Mərkəzində Yeni Azərbaycan Partiyasının gənc fəalları üçün 3 günlük düşərgə təşkil olunub.



Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyi və Həmkarlar İttifaqları Şurasının birgə təşkilatçılığı ilə reallaşan "Qış liderlik məktəbi"ndə partiyanın müxtəlif sahələrdə fəaliyyət göstərən 30 gənc üzvü iştirak edir.

Düşərgənin ilk günündə Bakı şəhərindən dəvət olunmuş təlimçi Fəxri Məhəmmədzadə tərəfindən "Effektiv komanda işi", "Liderlik və təsirli ünsiyyət" mövzularında təlim keçilib, komanda quruculuğu oyunları təşkil olunub. Gənclər gün ərzində layihənin əyləncəli açılış tədbirində iştirak edib, "Prezident. Təkrarsız diplomatiya" sənədli filmini izləyiblər.

Qeyd edək ki, düşərgə müddətində təlimlər davam etdiriləcək, poeziya saatı, intellektual yarışmalar, seminarlar, müzakirələr təşkil olunacaq, fərqlənən iştirakçılar sertifikatla mükafatlandırılacaq.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Şərurda yoldaşlıq görüşü

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Voleybol Federasiyasının təşkilatçılığı ilə voleybol üzrə yoldaşlıq görüşü keçirilib.

Şərur Olimpiya İdman Kompleksində keçirilən görüşdə "Şərur" və "Ordubad" komandaları üz-üzə gəlib. "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!" devizi altında keçirilən yoldaşlıq görüşündə daha üstün oyun sərgiləyən Şərur təmsilçisi meydanı 3:1 hesablı qələbə ilə tərk edib.

Sonda oyunçular mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Əliyev Nicat Nüsrət oğluna məxsus AD seriyalı 0021413 nömrəli şəxsi vəsiqə itdiyindən etibarsız sayılır.

* * *

Ramazanov Orxan Arif oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Nail Əsgərov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 177**